# İtirib özündə özünü dünya...

**Axırzaman yaşayanlar...**

Axırzaman necə olur bilirsizmi, görübsüzmü?! Dünyanın sonu demək. Dünyanın sonu haqqında bilən adamları - Nostradamus, Vanqa, Volf Messinq... daha kimlər, kimlər... ən güclü psixoloqlar belə demişlər... Nə demişlərsə yalan... Allahdan çox bilməzlər ki... Axı Tanrı yazar öz quluna ömrü! Tanrı yaradandır; kimini öz dərgahında cənnətməkan edər, kimini isə...

Dünyanın sonunu yaşayanlardır... Axırzamanı görər, yaşar onlar. Onlara zamanın, vaxtın dəyəri olmaz sonrakı yaşamlarında. Onlara geyimin gözəlliyi, yeməyin dadı olmaz həyatda. Həyat onlar üçün yeknəsək. Günəş daim qürubda... Duman daim qara rəngdə. Düşüncələri tufanlı, gündüzləri gecələrdən fərqlənməz ki... Dərd rəngli, dərd geyimli, örpək və papaqları isə Vətən bayrağı!.. Şəhid valideynləridir onlar!.. Vətən üçün vətən daşı yetişdirənlər. Torpaq üçün vətən daşını özül üçün yetirənlər, insanlığı məfhum kimi dünyanın əzəlinə tanıdanlar, vətəni Vətən etmək üçün övlad yetişdirənlər!..

**Elşən yanğısı**

Tam 2 il olmamış o valideynlərin sırasına qoşuldu onlarca insanlar. Yeni, ən ali, ancaq ən ağır "titul" aldılar - şəhid valideyni... Elşən də 13 sentyabr iğtişaşının ilk qurbanlarından biri idi. Mıxlıqovaq kəndinin igid və zəhmətkeş gənclərinin şərəfli, ancaq acı tale yaşayan, əzizlərinə "sinə dağı" çəkən beşinci şəhid övladı... Onun nəşi gələn gecə... Axırzamanı təkrar yaşadı şəhid valideynləri!.. Bəy evi üçün hazırlanmış evinə Vətən bayrağını libas seçərək silahdaşlarının çiynində daxil oldu... Ana ruhu gecə dumanına dönüb göylərdə hayqırdı... Atanın, bacıların, özünə can yoldaşı seçdiyi nişanlısının, ona ana əvəzi olmuş bibinin isə dünyası yıxıldı... şəhidlik zirvəsinin pik nöqtəsinə belə çatdı onların naləsi... Ələlxüsus Elşən öz bəy otağına qaldırılanda... Nişanlısı son dəfə onunla vidalaşanda, yumağa dönmüş ata xeyir-dua verəcəyi halda bəy otağında oğlunun susqun simasını görəndə, bacıların, ana əvəzi bibinin susuzluqdan yanmış kimi cadarlanmış, qaral-



mış simasından, acısından, ağrısından, ruhsuz bir bədənə dönmüş varlığından, anasız Elşənə ana olan ürəyi dağlı şəhid analarının göylərə bülənd olmuş ağı səsindən, için-için ağlayaraq od-ocaqda yanırmış kimi qovrulan şəhid atalarının tüstüsüz alovunda görünürdü axırzaman!..

**Elşən kimdir?**

Elşən Babazadə 1996-cı ildə Qəbələnin Mıxlıqovaq kəndində zəhmətkeş bir ailədə dünyaya göz açmışdır. Orta təhsilli Elşən Babazadə hərbi xidmətini başa vurduqdan sonra da bu sahədə işləmək, Vətən keşiyində dayanmaq arzusu ilə müddətdən əlavə xidmətini davam etdirir. Son zamanlar gənclərimiz həm rəsmi iş yeri kimi, həm də müqəddəs bir vəzifə kimi hərbi sahədə işləməyə daha çox meyl edirlər. Məhz Elşən də bu istəkdə olan gənclərdən biri idi.

Hərbi sahədə əmək fəaliyyətini davam etdirən Elşən nişanlı idi. Oktyabr ayında sevdiyi qız ilə ailə quracaqdı. Anasını körpə ikən itirən Elşənə və iki bacısına atası Sahib (qohumları onu Mahir çağırırlar) onlara həm ana, həm də ata olmuşdur. Bibisi də ömrünü bu balalara həsr etmiş, onları özünə övlad seçmişdi.

Həyətdəki köhnə evin yanında Elşənə təzə ev tikilmiş, bəy otağı hazırlanmışdı və bu ayın sonunadək evə seçilmiş mebellər yığılacaqdı...

Ermənistan silahlı qüvvələrinin Azərbaycan - Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətində törətdiyi geniş miqyaslı təxribatın qarşısının alınması zamanı şəhid oldu... Arzuları çiliklənmiş bu gənc ana ruhu başda olmaqla bütün əzizlərinin arzularını nakam qoydu. Gözlərdə, ürəklərdə dondu istək və arzular. Özü əbədiyyətə qovuşdu, əzizlərinə isə ali, ancaq ağrı-acılı bir titul qazandıraraq onları qəlbi yaralılar siyahısına əlavə etdi...

**Yuxu kimi**

O kəndə gedənəcən maşınlar da, camaat da yol kənarına yığışmışdı. Qəbələnin vətənpərvər insanları yaşından asılı olmayaraq; şəhidi olan qəbələlilər, döyüşçü və qazilər, (hətta əsa ilə gələnlər belə), körpə məktəbli balalar da yol kənarında Elşəni gözləyirdi. Onunla son görüşə gəlmişdi; tanımadan, görmədən son dəfə onunla görüşmək üçün. Bu, əlbəttə hər kəsin vətəndaşlıq borcu idi. Silahdaşlar da şəhidin evlərinə gedən yolun istiqamətində müntəzir dayanmışdılar. Hava qaralmaq üzrə olsa da, bayraqlar da, insanlar da hələ uzaqdan seçilirdi. Yaxınlaşdıqca isə hər kəsin üzündən həyəcan dolu üzüntü oxunurdu, sezilirdi. Hamı daşlı, tozlu kənd yolu ilə (yol boyu cərgələnən maşınların tıxacına görə) Sahib kişinin evinə gedirdi; əlbəttə evi soruşaraq gedənlər də çox idi. Onların evinə çatanda artıq hava tam qaralmışdı. Nalə səsləri, yanğılı ağılar ürək parçalayırdı. Öndəki bacısı idi: - "balam gəlir, yol verin!" deyə həm də ana kimi ağlayırdı. Axı ana göy qübbəsində gözləyirdi onu... On bir ildir ki, dünyasını dəyişən ana yaxşı ki, bu gözləniltidə cismən yox idi. Ancaq yarası qaysaq bağlamayan (qəbələli) hər bir şəhid anası bu gün ona ana olmuşdu...

Saat 8-də gəldi evinə son görüşə Elşən...

Elşən öz doğma obasında dəfn olundu. Gecə olmasına rəğmən böyük izdihamla qarşılanan Azərbaycan bayrağı libaslı Elşən Babazadə yaşadığı evdə təşkil olunan vida mərasimində ailə üzvləri, yaxınları, Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı və kollektivi, şəhid ailələri, qazi və döyüşçülər, rayon ictimaiyyətinin nümayəndələri, yerli sakinlər iştirak edirdilər.

Ölməzliyə qovuşdu - 2022-ci ilin sentyabr iğtişaşının ilk qurbanlarından olan igid Elşənimiz.

***Mən bir evin, bir vicdanın köləsiyəm,***
***Göy uçulsa, torpaq ölsə öləsiyəm.***

**Məmməd Araz.**

Elşən vicdanının kölesi olaraq xalqına kölə adını yaraşdırmayan igid oğullardandır. Torpağını torpaq edən, vətənləşdirən igidlərdəndir. Öz ürəyi ilə ürəklərə köçən igid! Yaxşı bilirdi, duyurdu ki, qara torpaq bir aynadır, elə bir ayna ki, insanlığın hər üzünü göstərər, ona görə də, torpağa bağlılığın son nidası olan şəhid adı qazandı. Qayalar torpağa köklənər, torpaq daşları qaya olsun deyə yetişdirər, qayalarsa al qanlarıyla torpağı torpaq edən şəhidlərin təbii abidələridir. Küləklər hər dəfə haray çəkdikcə şəhidlərin adı qayalarda səslənir.

Dünyanı dünya edən onun canlılarıdır. Canlıların qəhrəmanlığı onların özlərini yüksək amal uğrunda fəda etməsidir. Kaş ki, dərdlini yedəkdə dərd sürüməyə... Dünya özündə özünü itirməyə... Məmməd Araz demiş ki,

***İtirib özündə özünü dünya,***
***Toyların, yasların özülü dünya...***

Dünya toyların, sevinclərin, zəfərlərin özülü ola... Ağrı-acılardan özünü itirməyə...

Müharibəsiz, iğtişaşsız dünya amalı ilə şəhadətə qovuşan şəhidlərimiz daima qəlblərdə yaşayır və yaşayacaq - öz ağrıacısıyla, müqəddəs tituluyla, uca adlarıyla!

**BİBİXANIM.**

# Bu torpağın son qurbanı mən olsam...

**Ana laylası, bacı qayğısı**

Hər nəslin şəcərəsində oxşar talelər yaşanılır, istənilsə də, istənilməsə də. Heç kəs əvvəlcədən bilə bilməz ki tale yazısını, axı Tanrı yazar alın yazısını. Bu günkü qəhrəmanımız Mıxlıqovaq kəndinin igid, qəhrəman bir övladıdır, o övladı ki, yaşadığı taleni öz doğma bacısı oğlu Elşənə təkrar yaşatdı... istəməyərək yaşatdı...

Saləddin Allahverdi oğlu Rəsulov 1974-cü ildə, 24 sentyabrda zəhmətkeş ailədə dünyaya göz açmışdı. 1981-ci ildə məktəbə getmişdi, qəlbi arzularla dolu bir kənd uşağı kimi böyüyürdü. Anasının xəstəliyi onun üzünə qəm kölgəsi salsa da, bacısı Leyla onun qəlbini ovudur, qəlbində nikbin duyğular yaratmağa çalışırdı. Ancaq anası Almaz xanım 1989-cu ildə ağır xəstəlikdən dünyasını dəyişdi. Leyla özündən kiçik bir qardaş və bacısına ana qayğısı göstərərək onları daima ovutmağa çalışdı...

**İllərin gənc övladı**

Saləddin orta məktəbi müvəffəqiyyətlə bitirdi və elə həmin ildə-1991-ci ildə Gəncə Politexnik Texnikumunun avto-mexanika fakültəsinə daxil oldu. Oxuduğu dövr elə illərə təsadüf etmişdi ki, Vətənində hər gün acı günlər yaşanılırdı. Vətən, torpaq sevgisi olan, vicdan yüksəkliyinin astanasında olan bir məqamı yaşayan Saləddin tələbə həyatının tam sevincini yaşaya bilməzdi. Elə bu istəklə də 1992-ci ilin oktyabrında Gəncə şəhər hərbi komissarlığından həqiqi hərbi xidmətə çağırışa istəklə, sevinclə getdi. O, Daxili Qoşunların X/T hissələrində və Bakı şəhər "N" saylı hərbi hissədə təlim keçdikdən sonra xidmətini davam etdirmək üçün Dağlıq Qarabağa-Kəlbəcər və Laçın istiqamətinə göndərilir. Qəlbində "Vətən mənə oğul demiş!"-düşüncəsini yaşadan Saləddin Kəlbəcər, Laçın, Füzuli istiqamətində gedən ağır döyüşlərdə iştirak edir. 1994-cü ilin sentyabr ayının 16-da Füzulinin Horadiz qəsəbəsi uğrunda gedən döyüşlərdə şəhid olur və 17.09.1994-cü ildə Mıxlıqovaq kəndində dəfn olunur. Onu da qeyd edək ki, Saləddinin oxuduğu sinifdə onunla bərabər iki sinif yoldaşı-Aslanov Yalçın Nüsrət oğlu və Apayev Nicat Şakir oğlu da onun kimi bu müharibənin şəhidləri olmuşlar; 3 dost-3 qəhrəman...



Elşən Babayev.



Saləddin Rəsulov.

**Şəhid bacısı-şəhid anası**

***Bu döyüşdü-əzilən var, əzən var***
***Ölüm hökmü qoltuğunda***
***gəzən var:..***

Anası dünyasını dəyişəndə Leyla ailənin böyük övladı idi. Ana itkisi, acısı yaşaya-yaşaya ailənin yükü də onun üzərində idi.

Ailədə 6 uşaq böyüyürdü: Ən böyüyü Leyla idi. O, bacı-qardaşlarına ana sevgisi, qayğısı ilə yanaşar, onlara yetimliyin acısını yaşamasın deyə həm fiziki, həm də mənəvi gücünü hər vəchlə sərf edirdi.

Ancaq alın yazısı yazılmışdı... Saləddini itirdi... bu acını ömür boyu yaşadı... Elə bir uzun ömür yaşamadı ki...

Leyla öz eloğlusu Sahib Babayevlə ailə qurmuşdu, 2 qızı və 1 oğul övladı var idi. Halal zəhmətlə, sevgiylə böyüdürdü onları. Ancaq övladlarını doyunca oxşamaq, sevmək ona nəsib olmadı. Anası yaşayan taleni yaşadı, övladları orta məktəbdə oxuyarkən dünyasını dəyişdi. Övladları Çiçək, Mehriban və Elşəni ömür yoldaşı Sahibə əmanət edib dünyasını dəyişdi. Sahib övladlarına həm ana, həm ata qayğısı göstərsə də, bibisi Mahirə hər an körpələrin yanında olsa da, ana sevgisi, ana şəfqəti Leylanın böyük qız övladı Çiçəyin üzərinə düşdü.

Elşən sevgisi Leylanın gözlərində, qəlbində o qədər dərin idi ki...

**İgidlik kökdən rişə alar**

Dayısı Saləddin haqqında çox eşidən Elşən Babayev zəhmətkeş ailənin yeganə övladı idi. Hərbçi olmaq, Vətən və torpaq sevgisi sanki Saləddin Rəsulovdan onun yaddaşına ərməğan edilmişdi. Düz 30 ildən sonra II Vətən Müharibəsində qazanılan zəfər sevinci qəlbində günəş kimi parladı və şəfəqlərini arzularına körpü etmişdi. Ancaq mənfur düşmənin hiylə dolu iğtişaşının qurbanı oldu Elşən balamız. O Elşən ki, dayısının qisasını o döyüşən istiqamətdə döyüşərək almışdı...

Saləddin də sentyabrda şəhid olmuşdu, Elşən də düz 28 il sonra eyni ayda şəhid oldu və dayısının dəfn olunduğu kənd qəbiristanlığında dəfn olundu...

Saləddini də son mənzilə yola salarkən ana ruhu ağladı, bacı ona ana laylası dedi; Elşənə də bu tale illər sonra qismət oldu. Son olsun!.. Bu şəcərəyə oxşar talelik son olsun, İlahi!

Şəhidlər ölməz, əbədi yaşarlar. Qoy bu torpağın son qurbanı olsun Elşən! Saləddin Rəsulov da sanki uca zirvədən əzizlərinə Məmməd Araz şeiriyyətinin dili ilə deyir:

***Bu torpağın son qurbanı mən olsam,***
***Öz odumda yanıb külə tən olsam,***
***Eldən ötən güllələrə dən olsaç,***
***Ata millət, oğul deyib ağlama!..***

Doğru! Çünki şəhidlər ölümsüzdür.

**BİBİXANIM.**